**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin (UNEC) rektoru, professor**
**Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim!**

Sizi və rəhbərlik etdiyiniz bütün kollektivinizi Azərbaycan Dövlət İqtisad Universitetinin yaranmasının 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi təhsil strategiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir aparılan islahatlar, qəbul edilən proqram, qərar və sərəncamlar bu sahədə ciddi keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Görülmüş tədbirlər milli təhsilimizin maddi texniki bazasını daha da möhkəmləndirmiş yüksək səviyyəli kadrların hazırlanmasına geniş imkanlar açılmışdır. Ölkəmizdə təhsil sahəsində əldə edilmiş nailiyyətlərdə 90 yaşlı Azərbaycan Dövlət İqtisad Universitetinin də yüksək payı vardır.

Uzun illər müxtəlif adlarda fəaliyyət göstərən Azərbaycan Dövlət İqtisad Universiteti fəaliyyətə başladığı gündən respublikamızda ali təhsilin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərməkdədir. Bu təhsil ocağı ölkəmizdə yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanması, yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin qorunması istiqamətlərində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Mənim də məzun olduğum və xalqımızın milli sərvətinə çevrilən Azərbaycan Dövlət İqtisad Universiteti bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsilin müxtəlif sahələrində çalışan çoxsaylı məzunları ilə müstəqil Azərbaycanın inkişafında yeni uğurlar qazanmış, ölkəmizdə sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment kimi ixtisaslar üzrə kadr hazırlığı və elmi-tədqiqat mərkəzinə çevrilmişdir.

Universitet rəhbərliyinin son dövrlərdə apardığı təşkilati işlər professor və müəllim heyətinin, eləcə də tələbələrin sosial-iqtisadi problemlərinin həllinə və təhsilin

səviyyəsinin yüksəldilməsinə yüksək təkan vermiş, onların əmək şəraitinin yaxşılaşdırılmasına, asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkilinə öz müsbət təsirini göstərməkdədir.

**Hörmətli Ədalət müəllim!**

Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası adından 90 illik yubiley münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, müqəddəs və məsul işinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**
**AHİK-in sədri, millət vəkili**
**İqtisad Elmləri Doktoru,**
**Professor** **S.Möhbalıyev**